# QARABAĞ GEYIMLƏRINDƏ PARÇALARIN BƏDII TƏRTIBATI VƏ BƏZƏKLƏR

**Yusifkənan Aytən Elman qızı**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Dizayn kafedrasının müəllimi**
**Email:** aytan.yusifkanan@unec.edu.az

***UOT 391***

https://doi.org/10.30546/200309.2026.002.524

**XÜLASƏ**

Bu məqalədə Qarabağ geyimlərində parçaların bədii tərtibatı və bəzəklər araşdırılır. Azərbaycanda aparılmış olan arxeoloji qazıntılar nəticəsində qədim dövrlərə aid tuncdan hazırlanmış biz, iynə kimi maddi nümunələr tapılmışdır ki, bu da Azərbaycanda tikmə sənətinin yaranmasının uzaq keçmişə söykənməsinin göstəricisidir. Azərbaycan milli geyimləri mürəkkəb inkişaf yolu keçmişdir. Hər bir xalqın özünəməxsus olan milli geyimi onun maddi və mənəvi dəyəri, mədəniyyətinin təcəssümüdür. Milli geyim nümunələri özünə aid elementləri, biçim tərzi, onların ərsəyə gəlməsində istifadə edilən parçalar xalqın tarixi ilə mədəniyyəti, adət ənənələri, dünyagörüşü haqqında ən güclü ifadə vasitəsi hesab edilir.

***Açar sözlər:*** parça, milli, maddi, mənəvi, adət, ənənə, mədəniyyət.

Azərbaycan geyim mədəniyyətinin zənginliyinin baris nümunəsi  məhz xanlıqlar dövründə ayrı-ayrı bölgələrdə sənətkarlığın dirçəldilməsi, müxtəlif sənət sahələrinin inkşafı, eləcə də  Şuşa şəhərinin sənət və ticarət mərkəzi olması, başqa ölkələrlə ticarət və iqtisadi əlaqələrin genişləndirilməsi və s. bu kimi  amillər hesab edilir. Bu dövrdə parça və müxtəlif növ geyimlərin istehsalı təşkil edilirdi. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq məsələlərini dərindən araşdıran tarixçi-alim C.M.Mustafayev tarixi mənbələrə istinad edərək yazır ki, Şamaxı, Şəki və Gəncə xanlıqlarından fərqli olaraq Qarabağ xanlığında pambıq parçalar istehsalı daha üstün mövqeyə malik idi. XVIII əsrin sonlarında Şuşada və onun ətrafında yerləşən yaşayış məntəqələrində pambıq parça istehsal edən 1000-ə qədər dəzgah fəaliyyət göstərirdi. Bir qədər sonra tərtib edilmiş mənbənin verdiyi məlumata görə Şuşada gündə hər birinin uzunluğu 70 xan arşını olan 8 min ədəd bez istehsal edilirdi. Hələ 1829- cu ildə Azərbaycanın mədəniyyət beşiyi olan Şuşada parça istehsal edən 28 bez Karxanası vardı.

Həm xaricdən gətirilən, həm də yerli istehsala aid olan bir çox parça növləri var idi ki, bu parçalara xalq arasında müəyyən adlar da verilmişdi. Belə parçalara "Məni Aldatdı",

"Alışdım Yandım", "Hacı,mənə bax", "Küçə mənə dar gəlir", "Pinti məni geyinməz", "Qonşu bağrı çatladan", "Dəymə gülüm tökülər" və s. nümunələr göstərmək olar ki, onlardan zərif geyimlər tikilirdi. Gənc qızlar və qadınlar üçün göz oxşayan rənglər seçilir, yaşlı qadınlar isə daha sadə və tünd parçalardan istifadə edirdi.

Azərbaycan xalqı tarix boyunca bütün sahələrdə olduğu kimi dekorativ sənətdə də zəngin və ecazkar mədəniyyət yaratmışdır. Məhz dekorativ-tətbiqi sənətə aid olan parçaların bədii tərtibatı- bədii-tikmə qədim sənət növü hesab edilir. Azərbaycanda naxış sənətinin fərqli texnologiyalarla tətbiqedilməsinin tarixi haqqında məlumatları tapılmış arxeoloji materiallar əsasında müəyyənləşdirmək olar. Parçaların tərtibatında əsasən bədii tikmə və boyama üsulundan istifadə edilirdi. Bədii tikmə üsulu ilə icra edilən tərtibatlarda əsasən ipək və yun sapların istifadəsi aktuallıq təşkil edirdi. Boyama üsulunda isə bitki mənşəli boyalar bəzən basma qəliblərlə parça üzərinə həkk edilər, bəzən də fərqli üsullarla naxış və ornamentlər işlənərdi. Azərbaycanda parçaların kütləvi istehsalı ilə yanaşı parçaların əl ilə bədii layihələndirilməsi də aktual idi. Belə tikmə növlərinə güləbətin, təkəlduz, düyməl əmə və s. nümunə göstərmək olar. Azərbaycanın bir çox bölgələrində kökü qədim tarixə söykənən bədii tikmə məktəbləri bu gün də qorunub saxlanmaqdadır.

Azərbaycanın bütün bölgələrinin, xüsusilə də Qarabağın zəngin maddi mədəniyyət irsini daşıyan nümunələrdə müxtəlif tərtibatlı parçalardan hazırlanmış geyim məmulatlarının, burada istifadə edilən ornamentlərin, rəng harmoniyasının özünəməxsus yeri vardır. Qarabağ əhalisinin ənənəvi geyimləri Azərbaycanın digər bölgə geyimləri ilə ümumi bənzərlik daşısa da bu geyimlərdə yerli xüsusiyyətləri, özünəməxsus detal və ştrixləri müşahidə etmək mümkündür. Qarabağ tarixi-etnoqrafik bölgəsinə aid olan ənənəvi xalq geyimləri bəzək elementləri, biçim forması, parçalar üzərində olan ornamental kompozisiya həlli ilə fərqlənmişdir.

Dəbdəbəli ziyafət geyimlərinin tərtibatında əsasən atlaz, məxmər kimi parçalardan istifadə edilirdi ki, bu da geyim nümunələrinə xüsusi zəriflik və görkəm verirdi. Məxmər, zərxara, xara, atlaz və s. bu kimi parçalar dövrün ən dəyərli parçaları hesab edilirdi ki, elə bu səbəbdən də belə parçalardan hazırlanmış olan geyimlər sahibinin sosial rifahı, iqtisadi durumu haqqında da məlumat verirdi. Bütün dövrlərdə geyim və kostyum sanki sahibi haqqında məlumat verici kommunikativ bir vasitə hesab edilmişdir.

XIX əsrin birinci yarısına qədər toxumanın (zərif və qalın) əriş və arğaç sapları təbii rənglərlə boyandığından müxtəlif qruplaşmaya malik idi. Məsələn arğac sapı tovlu, tovsuz,

eşmə, burma, düyün və.s ola bilərdi. Zərif növ toxumalarda əksərən yarım tovlu arğac və əriş saplarından istifadə olunurdu.

Azərbaycanda bədii tikmə və toxuculuq sənətinin yüksək səviyyədə olmasının baris nümunələrindən biri Azərbaycan tarix Muzeyinin fondunda saxlanılan geyimlərdir. Ağdam istehsalı olan bu nümunədə qara millərin əhatəsində olan bir neçə ağ, qırmızı, qəhvəyi rəngli enli zolaqların sanki işıq-kölgə prinsipi əsaslanır. Geyimin uzununa gedilən zolaqları üzərinə ağ rəngli sapla sınıq həndəsi xətdən yaranan silsilə naxış tətbiq edilmişdir və bu bir tərəfdən toxumanın ümumi vəznini, digər tərəfdən isə zolaqların dinamikasını yüngülləşdirir. Ala köynək və bu qəbildən olan toxumalar nisbətən qalın toxunduğu üçün əvvəllər ondan məişətdə istifadə edərək taxt üstünə salar, suvaq çəkilmiş divarları bəzəyərdilər.

Belə bir nəticəyə gəlmək olar ki, sayma ilmə Azərbaycan xalqına hələ uzaq keçmişdən məlumdur. Beləliklə də, doğma yurdun, Qarabağın füsunkar təbiətindən alınan sadə məzmunlu təsvirlər müəyyən qədər realizmə meyl göstərməsinə baxmayaraq burada əsasən tikmənin, yaradıcılığın spesifik xüsusiyyətindən irəli gələn şərti dekorativlik üsulu daha artıq hiss olunurdu. Çünki, bu üsul öz xarakterik xüsusiyyəti cəhətdən xalça sənəti ilə az da olsa yaxınlıq təşkil edir. Xalçada olduğu kimi tikmədə də naxışların kontur xətti pilləlidir. Bu da təsadüfi deyildir. Ona görə ki, həm xalçada həm də tikmədə naxış sapların və ya iplərin sayından asılı olaraq yaranır.

XIX əsrdə bəzən də “vazı” adlanan (Qarabağda) ən yüksək keyfiyyətə malik ipəkdən toxunan müxtəlif rəngli zolaqlı həmyanlardan məişətdə (məslən, qadın üst paltarı, yorğanüzü,üküzü və.s) geniş istifadə olunurdu. Azərbaycanda müxtəlif növ cecimi toxumalarla yanaşı, evlərdə qadınlar tərəfindən çox sadə ensiz yer hanasında özünün praktik-utilitar və bədii-dekorativ xüsusiyyətləri ilə fərqlənən bir neçə ipək toxumalar da (“ağəbirli”, “alyerli”, “dırnaqlı”, “miyanı”, “şanadişi” və.s adda döşəküzlər) istehsal olunurdu. Belə cecimi parçalar da ipək və gəci saplarının qarışığından hasil olunurdu. Bu toxumaların sapı bərk tovlu olurdu. Toxunuş zamanı parçanın hər iki üzündə incə cizgilər əmələ gəlirdi.

Toxuma parçaların bəzəyi əsasən iki cür-həndəsi naxışlardan (zol-zol) və bunlardan alınan dama-dama naxışlardan ibarət idi. Lakin müxtəlif bədii ünsürlər və ya naxış motivləri toxuma parçanın ancaq cecimi qrupunda tətbiq olunurdu. Qustar toxuma parçaların cecimi qrupuna daxil edilən və ancaq yun iplik və ya bunların qarışığından alınan növlərindən başqa həmin dövrdə Şuşada təmiz ipəkdən cecim və cecimi toxuma parçalar da istehsal olunurdu. Xalq toxuma parça növləri olduqca sadə, lakonik bəzəkli quruluşa malik olduğu üçün böyük rəğbətlə qarşılanırdı. Bunun səbəbi yalnız naxışların sadə, materialın zərif, toxunuşun

möhkəm olması deyil, bunlardakı rəng şuxluğunun, rəng ahəngdarlığının üstün yer tutması idi. Burada müxtəlif rənglər bir-biri ilə müvafiq və bəzən də ciddi kontrastlı, az miqdarda olsa da cecimi toxumalarda olan həndəsi motivlər “ kilim naxışı”, “bəndi-rumi” və.s tikmə üsulu ilə tətbiq olunurdu. Qeyd etmək lazımdır ki XIX əsrin ikinci yarısında toxuma üsulu ilə naxışlanan tafta, mov və darayı kimi ipək parçalarda qızılı və gümüşü sapların tətbiqini yenilik kimi qəbul etmək olardı.

XIX əsrdə parçalar iki üsulla-sırf əl üsulu ilə evdə, qustar fabrik üsulu ilə toxucu müəssisələrində istehsal olunurdu. Toxuma parçalar yerli xammaldan hazırlanırdı. Əksər toxumalar sənaye əhəmiyyətli idi. Cecimi parçalar yerli məişət xarakterli olduğundan onun istehsalı nisbətən az idi.

XIX əsr Azərbaycan cecimi toxuma parçaların bəzi nümunələri texniki və bədii cəhətdən Orta Asiyada “əbr”, “qələmi” Gürcüstanın “marenda”, Ukraynanın “plaxta”, Moldaviyanın “çeçunca” növlü toxumaları ilə müqayisə oluna bilər. Məlumdur ki, 1882ci ildə təsis olunan “Emil sindel” çit fabrikində əvvəllər Şərq üslubunda zolaqlı, sonralar isə dama-dama naxışlı çit istehsal edilmişdir.

XIX əsrdə qustar toxuma parçaların cecimi qrupuna aid olan alaca və tətinlik nisbətən az istehsal olunurdu. Şuşa istehsalı olan bu naxışlı toxumalardan ancaq qadın üst paltarlarının hazırlanmasında istifadə edilirdi. XIX əsrin sonlarına yaxın bu növ parçalar da tədricən azalır. Çünki, bu dövrdə qustar toxuma istehsalının səciyyəsi dəyişilir, ilk növbədə xam ipək (barama) Marselə və Rusiyaya aparılır. Toxuma üsulunda nəzərə çarpan bəzi yeniliklər – dəzgahların mexanikləşdirilməsi, süni boyaların tətbiq olunması, metal daraqların, yeni məkiklərin, iynə və toxuculuğa aid olan başqa alətlərin təkmilləşdirilməsi artıq cecimi tipli parçaların evdə istehsalını məhdudlaşdırırdı.

Beləliklə, məlum olur ki, Azərbaycanda, eləcə də Qarabağ bölgəsində XIX əsr qustar toxumaların bəzəyi əsas etibarilə rəngli zolaq və dama-dama naxışlardan ibarət idi. Əlbəttə yalnız sadə həndəsi xətlərdən ibarət, müxtəlif quruluşlu, zəngin estetik dəyərə malik toxumalar yaratmaq çox çətindir. Lakin xalq ustalarının yaratdıqları bu sadə naxışlarda istehsal olunan bölgələrin nəfsini, ruhunu duymaq, hiss etmək mümkündür. Bütün dekorativ nümunələrin istehsalında iki cür əmək sərf olunurdu. Bunlardan biri maddi-texniki, ikincisi isə bədii-estetik əmək idi. Bu iki əməyin birləşməsi nəticəsində bədii məmulat hazırlanırdı. Azərbaycan qustar toxuma parçaları məhz belə bir xüsusiyyəti özündə aydın əks etdirirdi.

XIX əsrdə Şuşada xüsusi olaraq baş örtükləri istehsal edən çoxlu sənətkarlar fəaliyyət göstərirdilər. Onlardan Məşədi Abbas Mirsə Məmməd oğlu, Kərbəlayi Kərim

Məşədi oğlu, Məşədi Abbas Məşədi Mehdi oğlunu, İbrahim Kətbəlayi Hüseyn oğlunu, Məşədi Məlik Dadaş oğlunu və başqalarını misal göstərə bilərik. Onların karxanalarında olan dəzgahların hər biri ayrılıqda toxumanın bir növünü istehsal edirdi. Məsələn dəzgahın birində "çarqat" deyilən toxuma, o birində alışa, darayı, digərində isə kəlağayı toxunulardı. Ümumiyyətlə, karxana sahibkarlarının səciyyəvi cəhətlərindən biri kimi qeyd etdiyimiz bu xüsusiyyət həmin dövr Orta Asiya toxuculuğunda da müaşhidə olunurdu.

Qarabağ qadınlarının geyimləri rəngarəngliyinə, çeşidliliyinə və yeniliklərinə görə, digər bölgələrin geyimlərindən cox fərqlənir. Bunun başlıca səbəbi geyim məmulatlarının hazırlandığı parçaların xüsusi bədii-estetik görkəmə malik olması idi. Burada yerli parçalarla yanaşı gətirilmə parçalar da aktuallıq təşkil edirdi. Qarabağın kübar ailələrinin Avropa və Rusiya ilə əlaqələrinin olması onların geyimlərinə də xüsusi təsir edirdi. Buna görə də Qarabağ Azərbaycanın, dəb mərkəzlərindən birinə çevrilmişdir.



**Şəkil 1. Üzeyir Hacıbəyovun anasına aid çəpkən (çəpkən özündə avropa elementlərini əks etdirir)**

Geyimlərin bədii tərtibatında isə parça üzərində tikmələrdən başqa yaxalıqlarına tikmə və çox vaxt geyimlərin bel hissəsi üçün istifadə edilən taxma növləri var idi ki, bu da milli geyimlərimizə xüsusi estetik görkəm verirdi. Belə tikmə bəzəklərə pilək, doldurma, güləbətin, muncuq, zərbafta, qaragözbafta, zəncirə, qıvrım və sair aid idi. Taxma bəzəklərə isə kəmərləri, sancaqları, tacları misal çəkmək olar.

Hələ uzaq keçmişdə istər qadınların, istərsə də kişilərin geyimlərinin və məişət əşyalarının bir qisminin bəzəyində müxtəlif rəngli muncuqlardan bədii təsvir vasitəsi kimi istifadə edirdilər. Bir qism geyim və ya məişət əşyalarının utilitar-dekorativ mahiyyətinin, yaxud əşyanın zahiri effektinin artmasında qismən rolu olan müxtəlif rəngli muncuqlardan

hazırlanan ənənəvi məmulatlara Qarabağın bədii tikmələri arasında rast gəlinir. Buraya mirvarili bəzəklər də daxildir. Muncuqlar adətən iri, xırda, şəffaf, qeyri- şəffaf rəngli və rəngsiz şüşədən olmaqla iki üsul ilə tək- tək və ya sapa düzülməklə qrup halında məmulata bənd edilirdi. Bu üsulların hər birinin tətbiqi özünəməxsus sahə və forma tələb edir. Buna misal olaraq sahəsi nisbətən geniş və sujetli əsərlərin yaradılmasında muncuqların qrup halında sapa düzülməsi üsulundan istifadə etmək daha məqsədə uyğundur. Görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın əl işləməsindən olan su qabı örtüyü sapa düzmə üsulu ilə icra olunmuşdur. (nümunə Azərbaycan ədəbiyyatı tarixi muzeyində saxlanılır) Qeyd etdiyimiz örtük kətan parçadan olub su qabının formasına uyğun biçilmişdir. Qırmızı, sarı, göy rəngli üç və ya beştaclı bitki motivlərindən əmələ gələn naxış silsiləsi kəmər kimi qabın ümumi formasını iki hissəyə (boğaz və gövdə ) bölmüşdür. Bu hissədə olan naxışlar bir-birini təkrar etmirdi. Beləki, aşağı hissədə verilən güllərin məntiqi ardıcılıqları müəyyən qədər dəyişir və sərbəstliyi ilə diqqəti cəlb edir. Əlbəttdə muncuqlu örtüyün bədii-estetik dəyəri və onun dekorativ xüsusiyyəti təkcə əşyanın üzərində tədbiq olunan müxtəlif formalı bitki təsvirlərinin əlvanlığı, rəngarəngliyi, ifadəliliyi və.s şərtlərlə öçülmür. Nümunənin daha gözəl görünməsində bilavasitə muncuqların spesifik xarakterindən irəli gələn monumental mozaika üslubunun da rolu qeyd olunmuşdur.

Qədim milli geyimlərimizin, onların tərtibatının, üzərində böyük məna daşıyan naxışların bu günə kimi gəlib çatmasında tarixçilərlə yanaşı, rəssamlarımızın da böyük rolu olmuşdur. Azərbaycan mədəniyyətinə məxsus nəbati və həndəsi naxışları, frizləri bütün gözəlliyi ilə milli geyimlərimizdə görmək mümkündür. Bu ornamentlər qədim türk mədəniyyətindən günümüzə gələn və özündə bir çox sirləri qoruyan sənət nümunələridir. Müasir rəssamlarımız milli geyimlərimizdə dönə-dönə bu əsrarəngiz gözəlliyə müraciət edrərək yeni milli geyimlərin yaranmasına öz töhfələrini vermişdilər.

## ARTISTIC ARRANGEMENT OF FABRICS AND DECORATIONS IN KARABAKH CLOTHING

**Yusifkenan Ayten Elman**
**Azerbaijan State University of Economics (UNEC)**
**Teacher of the Design Department**
**E-mail: aytan.yusifkanan@unec.edu.az**

***UDC 391***

**SUMMARY**

The article examines the artistic design and decoration of fabrics in Karabakh clothing. Archaeological excavations conducted in Azerbaijan have uncovered material artifacts such as bronze awls and needles dating back to ancient times, which indicate that the art of embroidery in Azerbaijan has deep historical roots. Azerbaijani national clothing has undergone a complex developmental process. The traditional attire of each nation reflects its material and spiritual values and embodies its culture. National costume samples, with their distinctive elements, styles, and the fabrics used in their creation, are considered powerful means of expressing a nation’s history, culture, customs, traditions, and worldview.

***Keywords:*** fabric, national, material, spiritual, custom, tradition, culture.

# ХУДОЖЕСТВЕННОЕ РАСПОЛОЖЕНИЕ ТКАНЕЙ И УКРАШЕНИЙ В КАРАБАХСКОЙ ОДЕЖДЕ

**Юсифкенан Айтен Эльман кызы**
**Азербайджанский Государственный Экономический Университет (UNEC)**
**Преподаватель кафедры Дизайн**
**Эл. почта: aytan.yusifkanan@unec.edu.az**

***УДК 391***

**РЕЗЮМЕ**

В статье рассматривается художественное оформление и декорирование тканей в Карабахской одежде. В результате археологических раскопок на территории Азербайджана были найдены образцы материалов, такие как бронзовые иглы и иглы с древних времен, что является свидетельством того, что возникновение искусства вышивки в Азербайджане относится к далекому прошлому. Азербайджанская национальная одежда прошла сложный путь развития. Национальная одежда, которая является уникальной для каждого народа, является олицетворением его материальной и духовной ценности и культуры. Образцы национальной одежды, имеющие свои элементы, стиль кроя, ткани, используемые при их создании, считаются самым мощным средством выражения истории и культуры народа, его обычаев, традиций и мировоззрения.

***Ключевые слова:*** ткань, национальный, материальный, духовный, обычай, традиция, культура.

***Ədəbiyyat siyahısı:***


1. G.Əliyeva  Azərbaycanın Bədii Parça və Tikmələri XIX-XX əsrlər Bakı, Elm, 1990.
2. S. Dünyamalıyeva Azərbaycan Geyimlərinin Bədii-Dekorativ Xüsusiyyətləri.  Bakı 2013.
3. Y.Məlikova. Azərbaycan xalça muzeyi kolleksiyasından bədii tikmələr. Bakı 2017.
4. https://az.wikipedia.org/wiki/Geyim
5. https://azerbaijan.az/related-information/51
6. https://melumatlar.az/blog/2640/milli-geyimler
7. https://www.youtube.com/watch?v=noGD5F336mQ&t=157s
8. http://azhistorymuseum.gov.az/
9. https://www.youtube.com/watch?v=Je1U3hAA1NA